№29

Adımız məfkurəmizdir

6 – 12 avqust 2024-cü il

Türküstan

www.turkustan.az

**Cavanşir Feyziyev**
**Fəlsəfə doktoru**

# Bəxtiyar Vahabzadənin yaradıcılığında

## *"Şəbi-Hicran" poemasında Füzulinin bədii obrazı*

(əvvəli ötən sayımızda)

Bəxtiyar Vahabzadə Füzulinin böyüklüyünü hər şeydən əvvəl dilinin sehrində görürdü və bu həm də Füzulinin ruhunun sehriydi. Dahi şairin dünyadakı bütün türk xalqlarının böyük sənətkarı olması onun ruhundan, ruhən Türk dünyasına yaxın, doğma olmasından qaynaqlanırdı. Onun bənzərsiz üslubu, poetik dili bu ruh birliyinin təcəlli etdiyi həqiqətdən qidalanırdı. Dilə, milli ruha, milli kökə bağlılıq həm də Bəxtiyar Vahabzadənin özünün böyüklüyündən intişar tapırdı. Bəxtiyar Vahabzadə sovetlər dönəminin ən kəsərli çağlarında belə sistemli, dayanıqlı şəkildə doğma ana dili mücadiləsi aparmış, öz ana dilinə biganə, yad olanları birmənalı şəkildə qınağa tutmuşdur. O, məşhur "Ana dili" şeirində öz dilinə xor baxan rusbaşlı "obrozovon"lara qarşı qəzəbini gizlətmir və "qoy bütün vəzifə, kreslo hərisliyindən irəli gələn bədxahlığınıza ananızın verdiyi süd qənim olsun, əvəzində bu yurdun "Segah"ı, "Rast"ı, "Şahnaz"ı, doğma dili mənim olsun" yazırdı. Bu, onun milli kökə, milli kimliyə bağlı olan qəlbinin, vicdanının səsiydi. Bəxtiyar Vahabzadəni doğma ana dilinə böyük eşqi, qədirbilənliyi, vətəndaşlıq qayəsi bağlayırdı. O, doğma dilinin aşiqi, məcnunu idi. Öz doğma dilinə məcnunanə bir sevgi bəsləyirdi. Və heç də təsadüfi deyildi ki, "Şəbi-hicran" poemasında dönə-dönə bəyan edir, ürək ağrısı ilə vurğulayırdı: "Bu qəmdir ki, millətin qəlbinə də, eşqinə də, ruhuna da qəsd edirlər, ay aman"... Bu, eyni zamanda Füzulinin harayı, qəlbinin səsi idi."Şəbi-hicran" poemasında ancaq "sərvəti deyil, ürəyi də parçalanan" bir məmləkətin, xalqın taleyi sanki həm Füzulinin, həm də Bəxtiyar Vahabzadənin dilindən, yaşamından belə ifadə olunurdu:

**Arzusunu, eşqini**
**O, tapmadı həyatda.**
**Həyata güldüyündən**
**Ağlatdı zülüm-zülüm**
**Füzulini həyat da!..**

**Burda böyük dərdimiz yadıma düşdü mənim,**
**Hələ birlik görməmiş mənim böyük vətənim.**
**Qəsbkarlar əlində didildi, parçalandı,**
**Ancaq sərvəti deyil, ürəyi də talandı.**
**Sərvət getsə qəm deyil,**
**Sərvət gələr yenə də.**
**Bu qəmdir ki, millətin**
**Qəlbinə, eşqinə də,**
**Dilinə, ruhuna da**
**Qəsd edələr, ay aman!**
**Ələmlərin, dərdlərin**
**Hamısından bu yaman!**

Bəxtiyar Vahabzadə öz böyük ustadı Füzuli kimi, bu milli faciə və dərdlərin ilk növbədə dövrün, zamanın xarakterindən irəli gəldiyini bəyan edirdi. Füzulinin də ən böyük gileyi, tənqid hədəfi zəmanədən idi. Zəmanədən şikayət ilk növbədə Füzulinin "Şikayətnamə" əsərinin meydana gəlməsinə zəmin yaradırdı. Öz növbəsində Bəxtiyar Vahabzadənin "Şikayətnamə"si "Gülüstan", "Şəbi-hicran" idi. Həm Füzulinin, həm də Bəxtiyar Vahabzadənin əsərləri öz zəmanələrinin manqurt təfəkkürünə üsyan faktları, lövhələri kimi qəbul edilirdi və Füzulinin "Şikayətnamə"si Bəxtiyar Vahabzadənin "Gülüstan"ı, "Şəbi-hicran"ı ilə tamamlanırdı:

**Hərəsi bir diyarda qalan qardaş-bacılar,**
**Füzulinin şeirilə tanıdı bir-birini.**
**O çatdırdı qardaşa qardaşın əllərini.**
**Könüllərə bir ümid,**
**Nəşə verdi Füzuli**
**Parçalanmış milləti**
**Birləşdirdi Füzuli.**



***Dərin minnətdarlıq hissi ilə qeyd etməliyik ki, Füzulinin XVI yüzildə gerçəkləşdirməyə çalışdığı kimi, XX yüzilin totalitar sovet basqıları altında eyni birləşdirici, oyadıcı, səfərbəredici missiyanı Bəxtiyar Vahabzadə fenomeni cəmiyyətimiz üçün yerinə yetirdi, millətin böyük dərdini çiyinlərində ləyaqətlə daşıdı, hər misrasında, hər beytində ikiyə bölünmüş doğma Azərbaycanımızın azad olmaq, birləşib bir olmaq ideyasını ifadə etdi və bu məqamda həmişə Füzuli ruhən, fikrən onun yanında oldu. Ona mənəvi dəstək verdi. Parçalanmış milləti birləşdirmək istəyinə güc qatdı. Füzuli dilinin sehrli, qüdrətli varlığı ilə yaratdığı "Gülüstan"ı, "Şəbi-hicran"ı ilə Bəxtiyar Vahabzadə böyük Türk dünyasını milli birliyə, bütövlüyə səslədi. Bütün bu dillər əzbəri olan əsərləri o, ilk növbədə Füzulinin ana laylasına bənzər poeziyasının həmrəyliyi, həmdərdliyi hücrəsinə etiqad və zikr edə-edə yaratdı, böyük ustadının poetik irsi barəsində həmişə xüsusi iftixar hissi ilə söz açdı: "Ana laylasına bənzər bu misralardakı dilin sehri dünyanın o başında yaşayan bir türklə, bu başında yaşayan türkü eyni kökə qovuşdurur, bir-birinə tapındırır. Budur, Füzuli şerinin tilsimi, böyüklüyü və qüdrəti" – deyən Bəxtiyar Vahabzadə bütün yaradıcılığı boyunca Füzuli irsinə mənən sədaqətini sərgiləmiş oldu...***

Dərin minnətdarlıq hissi ilə qeyd etməliyik ki, Füzulinin XVI yüzildə gerçəkləşdirməyə çalışdığı kimi, XX yüzilin totalitar sovet basqıları altında eyni birləşdirici, oyadıcı, səfərbəredici missiyanı Bəxtiyar Vahabzadə fenomeni cəmiyyətimiz üçün yerinə yetirdi, millətin böyük dərdini çiyinlərində ləyaqətlə daşıdı, hər misrasında, hər beytində ikiyə bölünmüş doğma Azərbaycanımızın azad olmaq, birləşib bir olmaq ideyasını ifadə etdi və bu məqamda həmişə Füzuli ruhən, fikrən onun yanında oldu. Ona mənəvi dəstək verdi. Parçalanmış milləti birləşdirmək istəyinə güc qatdı. Füzuli dilinin sehrli, qüdrətli varlığı ilə yaratdığı "Gülüstan"ı, "Şəbi-hicran"ı ilə Bəxtiyar Vahabzadə böyük Türk dünyasını milli birliyə, bütövlüyə səslədi. Bütün bu dillər əzbəri olan əsərləri o, ilk növbədə Füzulinin ana laylasına bənzər poeziyasının həmrəyliyi, həmdərdliyi hücrəsinə etiqad və zikr edə-edə yaratdı, böyük ustadının poetik irsi barəsində həmişə xüsusi iftixar hissi ilə söz açdı: "Ana laylasına bənzər bu misralardakı dilin sehri dünyanın o başında yaşayan bir türklə, bu başında yaşayan türkü eyni kökə qovuşdurur, bir-birinə tapındırır. Budur, Füzuli şerinin tilsimi, böyüklüyü və qüdrəti" – deyən Bəxtiyar Vahabzadə bütün yaradıcılığı boyunca Füzuli irsinə mənən sədaqətini sərgiləmiş oldu.

**Qapadı gözlərini yana-yana Füzuli**
**Zülmündən usandığı bu cahana Füzuli...**

Bütün bu misralarda o, həm də Füzuli obrazını əbədiləşdirir. "Şəbi-hicran" poemasında Türk dünyasının Bəxtiyarı türkün ulu ruhunun tərcümanı Füzulinin bədii-estetik doğuluşunu qələmə alır. Türkçülük və Azərbaycançılıq məfkuresi üzərində əbədiləşən bu Söz heykəli böyük şairi oxuculara hər misrası ilə sevdirməkdədir. "Şəbi-hicran" Füzuli dünyasına gedən bədii yoldur, şair Füzulinin ilahi eşq fəlsəfəsini çiyninə alıb bu yolla haqqın dərgahına doğru gedir. Bu yol əslində şairliyin əzablı, fəqət şərəfli yoludur. Bəxtiyar Vahabzadənin çox sevdiyi sözlə desək, İnam yoludur. Füzuli Tanrıya inanardı – Füzulinin Tanrısı Eşq idi. Bu dünyaya göylərdən Eşq bəlasına mübtəla olmaq üçün gəlmişdi Füzuli...

**Ömrünü ahlarla vermədin bada,**
**Arzu dəryasında bir yelkən oldun.**
**Zaman özgəsini yandıranda da**
**Alışan o oldu, yanan sən oldun.**

**Ağladın, yayıldı səsin hər yana,**
**Bülbül bağçalarda ötdü – dedilər.**
**Gələndə Məhəmməd gəldin cahana**
**Gedəndə: 'Füzuli getdi" – dedilər.**

M.Füzuli tarix durduqca duran, sənəti ilə ölümsüzlük qazanan, zamanların ötəsində insanlığın qəlbində, iç dünyasında əbədiyaşar bir obrazdır. Hər iki sənətkarın "Şəbi-hicran"ı – Füzulinin "Şəbi-hicran" və Bəxtiyarın "Şəbi-hicran" poemaları ilahi bir eşqlə sevən, sevgisiylə kamilləşən İnsanın özünüdərk yoludur.

Yüzillər ötsə də, bu yol mənən kamilləşməyə doğru varan hər bir Türkün ruhuna işıq, düşüncələrinə aydınlıq olacaq...

Oxu, oxut, abunə ol!